# PortCoin (PTC) White Paper

**1. Giriş** PortCoin (PTC), Portmanat.az ödəniş sisteminə inteqrasiya olunmuş BEP-20 tokenidir və istifadəçilərə kriptovalyutalar aləminə daxil olmaq üçün rahat imkan yaradır. PTC tokenlərini Azərbaycan Manatı (AZN) ilə asanlıqla almaq və ya Portmanat platformasında AZN-ə çevirmək mümkündür. Bu funksiya istifadəçilərə kriptovalyutalarla ödənişləri daha rahat şəkildə aparmaq imkanı verir.

**2. Layihənin Məqsədi** PTC-nin məqsədi istifadəçilərə kriptovalyutalardan təhlükəsiz, sürətli və sərfəli istifadə etmək imkanını yaratmaqla yanaşı, PTC-nin Portmanat ekosistemində qəbulunu artırmaqdır. PTC istifadəçilərə kripto aktivləri Portmanat hesablarına köçürmək və AZN-ə dəyişdirmək imkanı yaradır.

### 3. Token Məlumatı

- **Token Adı:** PortCoin (PTC)
- **Standart:** BEP-20
- **Toplam Təchizat:** 1,000,000,000 PTC
- **İlkin Siyahıya Alınma:** PancakeSwap DEX
- **Son Token Qiymәti:** PTC-nin son dəyərini CoinGecko və CoinMarketCap üzərində izləmək olar.

### 3.1 Tokenomika və Ayrılma

| Kateqoriya | Ayrılma |
|---|---|
| Likvidlik | 1% |
| Ekosistem Ehtiyatı | 99% |

**4. Texniki Arxitektura** PTC, Binance Smart Chain (BSC) üzərində BEP-20 tokeni kimi fəaliyyət göstərir. Onun smart kontraktları təhlükəsizlik və performans nəzərə alınaraq hazırlanmışdır.

### 4.1 Smart Kontraktlar

- **Kontrakt Ünvanı (BSC):** 0x394a26e3BD4367916D63bfF8CE8502a78AE9a5B2
- **Sabit Token sayı:** Əlavə token yaradılması mümkün deyil.
- **Transfer zamanı Vergi:** Heç bir transfer vergisi tətbiq olunmur.
- **Dəyişdirilə Bilən Kontrakt:** Kontrakt dəyişdirilə bilməz.
- **Audit:** PTC smart kontraktı 2025-ci ildə tam auditdən keçəcək. Audit hesabatı ümumi istifadə üçün açıq olacaq.

### 5. İstifadə Halları

**5.1. Ödənişlər və Transferlər** PTC, Portmanat platformasında kripto transferlərini və ödənişləri yerinə yetirməyə imkan yaradır.

**5.2. Cashback** PTC Cashback Portmanat-da ödənişlərə tətbiq ediləcək və digər şirkətlər üçün də istifadəsi planlaşdırılır.

**5.3. Swap Funksionallığı** PTC, PancakeSwap üzərində BNB, USDT və digər tokenlərə dəyişdirilə bilər. Bundan əlavə, PancakeSwap Portmanat-a inteqrasiya olunub ki, bu da PTC-nin AZN-ə çevrilməsini mümkün edir.

**5.4. P2P** PTC, xarici şirkətlərə öz milli valyutaları ilə dəyişmək imkanı yaradır. Bu xüsusiyyət xüsusilə xaricdə yaşayan azərbaycanlılar üçün faydalıdır, çünki onlar PTC-ni Portmanat cüzdanlarına və ya digər PTC cüzdanlarına göndərə bilərlər. Hazırda bu məsələyə Azərbaycan Mərkəzi Bankı tərəfindən sandbox rejimi

## 6. Bazar və Strategiya

**6.1. Məqsəd Bazarı** PTC, gündəlik ödənişlər üçün kriptovalyutalardan istifadə etmək istəyən fərdi şəxsləri və biznesləri hədəfləyir.

### 6.2. İnkişaf Strategiyası

- **Faza 1:** PancakeSwap DEX siyahıya alınması (Tamamlandı 2024-cü ilin II rübü)
- **Faza 2:** Portmanat-da PancakeSwap inteqrasiyası (Tamamlandı 2024-cü ilin IV rübü)
- **Faza 3:** CoinMarketCap & CoinGecko üçün müraciət (2025-ci ilin I rübü)
- **Faza 4:** PTC Cashback tətbiqi (2025-ci ilin II rübü)
- **Faza 5:** P2P tətbiqi (2025-ci ilin II rübü)
- **Faza 6:** MEXC, Gate.io və ya KuCoin üçün listinq müraciətləri (2025-ci ilin II rübü)
- **Faza 7:** Binance listinq müraciəti (2025-ci ilin IV rübü)

**7. Ekosistem** Portmanat ekosistemi PTC istifadəsini asanlaşdıran həllər təklif edir.

## 8. Təhlükəsizlik və Uyğunluq

- **Təhlükəsizlik:** PTC smart kontraktları mütəmadi audit edilir.
- **Uyğunluq:** PTC, Azərbaycan Mərkəzi Bankı-nın sandbox təşəbbüsü daxilində istifadə edilir.
- **AML/KYC:** Listinq üçün AML/KYC qaydalarına uyğunluq təmin ediləcək.

## 9. Yol Xəritəsi

- **2024:** PTC-nin PancakeSwap-da siyahıya alınması
- **2025:** Binance listinq müraciəti, beynəlxalq bazara çıxış

## 10. Komanda

| Ad | Vəzifə | LinkedIn |
|---|---|---|
| Telman Axundov | Təsisçi və CEO | LinkedIn |
| Beyrək Cabarov | Baş Proqramçı və Komanda Lideri | LinkedIn |
| Rüfət Bağırlı | Blokçeyn Mühəndisi | LinkedIn |
| Cavid Əliyev | Aparıcı Proqramçı | LinkedIn |

Aytan Çələbi Product owner və Kiber Təhlükəsizlik Mütəxəssisi LinkedIn

**11. Nəticə** PTC, Portmanat ekosisteminin bir hissəsi kimi kriptovalyutalardan istifadəni asanlaşdırmaq üçün yaradılıb. Təhlükəsiz, sürətli və istifadəyə yararlı olması ilə PTC ölkə daxilində kripto iqtisadiyyatına töhfə verməyi hədəfləyir.

Azərbaycan Mərkəzi Bankı PortCoin kripto aktivinin Xüsusi Tənzimləmə Rejimi çərçivəsində istifadəsinə icazə verib. Şirkətimiz bu test mühiti çərçivəsində PortCoin məhsulunu real bazar şərtlərində sınaqdan keçirir.

**Risk Açıqlaması:** PTC-nin qiyməti bazar tələbi və likvidliyə əsaslanır. İnvestisiya etməzdən əvvəl öz araşdırmanızı aparın.